# Müharibənin öz qanunları var...



***Mən Şuşanı Azərbaycanın Mədəniyyət Paytaxtı elan etdim. Ancaq bütün digər şəhərlər də mənim üçün, bütün Azərbaycan xalqı üçün Şuşa qədər əzizdir və doğmadır. Hər qarış torpaq bizim torpaqdır və onları biz azad etməli idik. Bu, xalq qarşısında, tarix qarşısında, gələcək nəsillər qarşısında bizim borcumuz idi və biz bu borcu şərəflə yerinə yetirdik.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**Dövlət başçımızın bir neçə gün əvvəl "CNN Türk" televiziya kanalına verdiyi müsahibənin qəzet variantını oxuyarkən iki xüsusi məqam yadıma düşdü. Birinci məqam Avropa təfəkkürü ilə bağlıdır. Böyük Britaniyanın görkəmli ictimai-siyasi xadimlərindən olan Uilyam Çörçill deyirmiş ki, ləyaqətli və əxlaqlı insanlar bu hissləri ağır artilleriya hücumları altında olarkən də unutmurlar. Yəni o insanlar müharibənin ən ağır məqamlarından da ləyaqətli və əxlaqlı şəkildə çıxırlar.**

İkinci məqam isə türk əxlaqı və düşüncə tərzi ilə bağlıdır. Türklərin də iştirak etdiyi müharibədən bəhs edən tarixi filmdə belə bir məqam var. Ağır yaralanmış əsgəri təcili olaraq döyüş meydanından çıxarmaq lazımdır. Döyüşçü yoldaşları onu çiyinlərinə götürmək istəyəndə türk əsgər deyir: "Abi, yanan otları söndürün, sonra məni götürün". Dostları yanğını söndürmək üçün vaxtın olmadığını deyəndə, əsgər yenidən xahiş edir: "Söndürün ki, burdan bir türkün keçdiyi bilinsin".

... Prezident İlham Əliyev təkcə 44 günlük Vətən müharibəsində deyil, ümumiyyətlə, bütün siyasi fəaliyyəti dövründə həm ali ləyaqət və əxlaq nümayiş etdirdi, həm də görkəmli türk sərkərdəsi olaraq, kiminsə günahsız yerə yanmasına imkan vermədi. Azğın, pozğun və quzğun düşmən hamının yuxuda olduğu bir vaxtda Gəncəni ən ağır silahlardan atəşə tutanda nəinki sadə insanlar, hətta ictimai xadimlər və yaradıcı ziyalılar da sosial şəbəkələrdə üsyankarcasına çağırışlar səsləndirirdilər ki, Xankəndi darmadağın edilsin. O insanları da başa düşmək olardı, Xankəndinə – hərbi obyektlər olmayan əraziyə bir güllə belə atılmasına icazə verməyən İlham Əliyevi də. O çağırışı səsləndirənlər körpə uşaqların, köməksiz qadın və qocaların, yuxuda olan şəhərin oda qalanmasına etiraz edəndə haqlı idilərsə, İlham Əliyev də insan qanı içən erməni siyasətçilərindən nə qədər ucada olduğunu sübut edəndə haqlı idi.

Dövlət başçımız bu məqamları "CNN Türk"-ə müsahibəsində də yada salmışdır. O, müharibə dövründə dəfələrlə deyirdi ki, Paşinyan özü mənə tarix versin, təqvim versin ki, nə zaman bizim torpaqlarımızdan rədd olur, həmin gün biz müharibəni dayandırırıq.Yəni Azərbaycan rəhbəri qan tökülməsini istəmədiyini dəfələrlə xatırlatmışdı. Gözünü Xocalıda tökülmüş günahsız qanlar tutmuş düşmən isə, Azərbaycan liderinin humanist çağırışını qulaqardına vurmaqdan məmnunluq hiss edirdi. Amma o məmnunluq uzun çəkmədi. Darmadağın olan Ermənistan ordusunun rəhbərliyi Nikol Paşinyana başa saldı ki, daha tab gətirə bilmirik. Paşinyan "oldu, noyabrın 9-da çıxırıq" deyən kimi Azərbaycan rəhbərliyi hərbi əməliyyatları dayandırdı. Yəni onlar özləri ləyaqət və əxlaqlarını ayaq altına atdılar. Prezident "CNN Türk"-ə müsahibəsində xatırladır: "Biz dayandıq, yenə də sözümüzə əməl etdik və dərinə getmədik. Yəni, ermənilərdən fərqli olaraq biz etnik təmizləmə aparmadıq, hərbi cinayət törətmədik, müharibəni ləyaqətlə apardıq, mülki şəxsləri vurmadıq. Hətta erməni əsgərlərini lazımsız yerə məhv etmədik".

Hələ bu harasıdır? Ermənistan rəhbərliyi məlum üçtərəfli bəyanatın imzalanmasından bir ay sonra Azərbaycan ərazisinə böyük bir təxribat qrupu göndərmişdi: "Onlar həbs olundu, halbuki məhv edilə bilərdilər. Çünki onlar bizim 4 hərbçimizi öldürdülər, amma biz onlara dəymədik. Yəni, müharibənin öz qanunları var və hər şey gərək ləyaqətlə olsun. Müharibədə də, mülki həyatda da, məişətdə də, evdə də, işdə də, siyasətdə də ləyaqət əsas prinsiplərdən biri olmalıdır. Ona görə indiki şəraitdə, əlbəttə ki, bizim başqa planlarımız var. Ancaq İkinci Qarabağ savaşı Azərbaycan xalqının tarixində əbədi qalacaq".

Yuxarıda xatırlatdığımız kimi, Ermənistan rəhbərliyi artıq öz qaçılmaz məğlubiyyətini dərk edərək bizi durdurmaq və mülki əhaliyə böyük zərər vermək üçün şəhər və kəndlərimizi ballistik raketlərlə, artilleriya qurğuları ilə daim atəşə tuturdu. Bunun nəticəsində 100-dən çox mülki şəxs, o cümlədən qadınlar və uşaqlar həlak olmuşdular. Gəncə, Bərdə, Ağdam, Goranboy, Naftalan, Tərtər, Füzuli və digər bölgələrimizi hər gün atəşə tuturdular. Prezident xatırladır: "Tərtər şəhərinə, – o qədər də böyük şəhər deyil, – 20 minə yaxın raket düşmüşdür. Ancaq Azərbaycan xalqının iradəsini qıra bilmədilər. Öz yaxınlarını, öz qohumlarını, əqrəbalarını itirmiş insanlar da deyirdilər ki, ancaq irəli getməliyik. Yəni, ermənilərin bu qeyri-insani davranışı da onlara heç bir xeyir, mənfəət gətirmədi, sadəcə olaraq, dünyanın gözü qarşısında özlərini növbəti dəfə vəhşilər kimi göstərdilər. Biz isə buna cavab vermədik, onun üçün Ermənistan tərəfində mülki əhali arasında itkilər çox azdır, təqribən 30 civarında və onların böyük əksəriyyəti savaşda iştirak edənlərdir".

Biz artıq dünya ictimaiyyətinə sübut etmişik ki, 44 günlük müharibə dövründə Qarabağ bölgəsində – ermənilərin işğalı altında olan yerlərdə və onların yaşadıqları yerlərdə heç bir dağıntılar olmamışdır. Yəni, bu, bir daha onu göstərir ki, biz müharibəni də ləyaqətlə aparmışıq və savaşa xas olan bütün qaydalara riayət etmişik. Bəs onlar müharibə qanunlarına necə əməl ediblər? Prezident xatırladır: "Ağdam şəhəri yoxdur. Ağdam şəhərində 30 mindən çox insan yaşayırdı. Şəhərdə bir dənə salamat bina qalmamışdır. Yəni, bütün binaları işğal dövründə erməni vəhşiləri yerlə bir etmişlər. Həmçinin Füzuli şəhəri də, digər şəhərlər və bütün kəndlər də. İnsanlar yüz kilometrlərlə yol qət edirlər və yol boyunca görür ki, sağ-sol, hər tərəf dağıdılıb, yəni, qayıtmağa yer yoxdur. Eyni zamanda, ermənilər orada yüz minlərlə mina basdırıb. Müharibə başa çatandan sonra – 10 noyabr tarixindən bu günə qədər 150-dən çox mülki şəxs və hərbçi minaya düşərək ya həlak olub, ya da ki, öz sağlamlığını itirib".

Təbii ki, tarixin bütün dönəmlərində, bütün ölkələr və ya xalqlar arasındakı müharibələr gec-tez sülh ilə başa çatıb. Azərbaycan rəhbərliyi həmin prosesin mümkün qədər tezləşdirilməsinə çalışır : "Mən bir neçə dəfə öz sözümü açıq demişdim ki, biz istəyirik Ermənistanla sülh müqaviləsi imzalansın. Ermənistan və Azərbaycan bir-birilərinin ərazi bütövlüyünü tanısınlar və sərhədlərin delimitasiyası, yəni, müəyyən edilməsi prosesi də başlasın. Ancaq bu günə qədər Ermənistandan müsbət cavab almamışıq. Belə görünür ki, Ermənistan buna hazır deyil, ya da bunun əleyhinədir. Mən söylədim ki, bu, böyük yanlışlıq olar və onlar özləri də peşman olacaqlar. Çünki biz bu təklifi masa üzərində əbədi saxlamalı deyilik".

İşğalçı ölkənin bu rüsvayçı məğlubiyyətdən sonra nə etmək istədiyi, əsl marağının nədən ibarət olduğu isə hələ ki, heç kəsə məlum deyil. Azərbaycanın indiki marağının nədən ibarət olduğunu isə dövlət başçımız növbəti dəfə təkrar edir: "Cənubi Qafqazda uzun fasilədən sonra sülhün təmin edilməsi bizim maraqlarımıza cavab verir. Hesab edirəm ki, Ermənistanın da maraqlarına cavab verir. Çünki Zəngəzur dəhlizi onların da maraqlarına xidmət edəcək. Onlar da dəmir yolu ilə həm İranla, həm Rusiya ilə əlaqə yarada bilərlər. Bu günə qədər bu əlaqə yoxdur və onlar üçün də yeni fürsətlər ortaya çıxacaq".

Bax, belə. Gündəlik həyatda, ictimai fəaliyyətdə və hətta məişət proseslərində ləyaqəti, əxlaqı gözləyə bilməyən insanların müharibə şəraitində həmin dəyərlərə hörmətlə yanaşa bilməməsi tamamilə təbiidir. Elə bizim dövlətin bütün dünyanın diqqət mərkəzində olan proseslərdə özünəməxsus ləyaqət və mükəmməl əxlaq nümayiş etdirməsi də tamamilə təbiidir. Çünki biz türk etnosu, Azərbaycan xalqı olaraq, min illər boyu həmin dəyərləri şərəflə daşımışıq.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***